UOT 342

# AZƏRBAYCANIN MİLLİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASINDA SƏRHƏD MÜHAFİZƏSİNİN ƏHƏMİYYƏTİ

**Q.ƏSGƏROV**
***Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası***
***esgerov.qarib@box.az***

*Ölkənin Milli təhlükəsizliyinin təmin olunması onun sabit və davamlı inkişafında strateji əhəmiyyət daşıyır, ictimai həyatın bütün sahələrini əhatə edən dinamik dəyişikliklər prosesinə mühüm təsir göstərir. Belə şəraitdə Dövlət Sərhəd Xidmətinin yaradılması çoxsaylı səbəblər üzündən zərurətə çevrilmişdir və Ulu Öndər bu səbəbləri dəqiqliklə ölçüb-biçmişdir. Belə ki, Azərbaycanın sərhədləri yaxınlığında gedən mürəkkəb və ziddiyyətli proseslər milli təhlükəsizliyimiz üçün ciddi təhdidlərə çevrilmişdi və Əfqanıstanda, İraqda, Gürcüstanda, Dağıstanda ciddi gərginlik ocaqlarının mövcudluğu, rəqib xüsusi xidmət orqanlarının bu vəziyyətdən istifadə etmək cəhdləri ilə xarakterizə olunan əməliyyat şəraiti ölkəmizin sərhədlərinin daha mükəmməl şəkildə qorunmasını tələb edirdi. Digər tərəfdən İpək yolu və Şimal-Cənub kimi transkontinental nəqliyyat dəhlizlərinin,ölkəmizin ərazisindən keçməsi müxtəlif transmilli kriminal təşkilatları mövcud şəraitdən öz məqsədləri üçün istifadə etməyə həvəsləndirirdi.*

**Açar sözlər:** sərhəd xidməti, siyasət, beynəlxalq standart, islahatlar, inkişaf

**"Sərhəd Qoşunlarında xidmət edən bütün şəxsi heyət Azərbaycanın müstəqilliyini və ərazi bütövlüyünü təmin etmək üçün nə qədər böyük məsuliyyət daşıdığını daim bilməlidir"**
**Heydər Əliyev**

XX əsrin sonunda müstəqillik əldə etməsi Azərbaycanın həm dövlət quruluşunda əsaslı dəyişikliklərin həyata keçirilməsini, yeni sosial-iqtisadi və ictimai-siyasi münasibətlərin formalaşmasını şərtləndirdi, həm də ona davamlı olaraq öz təhlükəsizliyinin qayğısına qalmaq kimi daimi bir məsuliyyət bəxş etdi. Müstəqil dövlətçilik maraqlarının təmin edilməsi tələbləri, yeni geosiyasi aktorlarla birbaşa ünsiyyətin yaranması, tamamilə fərqli bir təhlükəsizlik mühi-

tinə daxil olması, iqtisadi, ictimai, siyasi münasibətlərin demokratiyaya, vətəndaş cəmiyyəti, bazar iqtisadiyyatı yoluna çıxması və s. yeniliklər Azərbaycanda şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyinə dair yeni-yeni yanaşmaların, proqram və konsepsiyaların yaradılması zərurətini ortaya çıxardı. Təbii ki, dövlətin təhlükəsizlik mühitinin etibarlı təmin olunmasında silahlı qüvvələrin üzərinə böyük məsuliyyət düşürdü. Şübhəsiz ki, ölkənin müdafiə siyasətinin düzgün qurulması bu məsuliyyətin dərəcəsini müəyyənləşdirməli idi. Azərbaycan Respublikasının müdafiə siyasəti ölkənin hərbi və digər sahələrdə maraqlarının təmin edilməsinə yönəldilmişdir və ölkənin milli təhlükəsizlik siyasətinin əsas tərkib hissələrindən biridir.

Hər bir ölkənin milli təhlükəsizlik siyasətinin səmərəliliyi onun təhlükəsizlik mühitindən və beynəlxalq münasibətlərdə dövlət haqqında formalaşmış fikirlərdən asılıdır. Dövlətin suverenliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, milli maraqların təminatı, davamlı inkişafı, vətəndaşlarının rifah halının və sosial-siyasi hüquqlarının təmin olunması məhz təhlükəsizlik mühitini və ölkə haqqında beynəlxalq aləmdə fikri formalaşdırır.

Dövlət quruculuğu işində əldə edilən uğurlar, aparılan məqsədyönlü xarici siyasət sayəsində ölkənin beynəlxalq imicinin müsbət istiqamətdə inkişafı, vətəndaşların əsas insan hüquq və azadlıqları ilə təminatı, eyni zamanda bütün bunların keşiyində dayanan güclü, nizami ordunun olması bu gün Azərbaycan dövlətinin qazandığı ən böyük nailiyyətlərdəndir. Təbii ki, bu uğurların əsası Ümummilli Lider tərəfindən qoyulmuş və "Heydər Əliyev siyasəti"nə bağlanır.

Ölkənin Milli təhlükəsizliyin təmin olunması onun sabit və davamlı inkişafında strateji əhəmiyyət daşıyır, ictimai həyatın bütün sahələrini əhatə edən dinamik dəyişikliklər prosesinə mühüm təsir göstərir (2, 70). Milli təhlükəsizliyin təmin olunmasında, şübhəsiz ki, həlledici rolu ölkənin müdafiə siyasətinin düzgün qurulması oynayır. Azərbaycan Respublikasının müdafiə siyasəti ölkənin hərbi və digər sahələrdə maraqlarının təmin edilməsinə yönəldilmişdir və ölkənin milli təhlükəsizlik siyasətinin əsas tərkib hissələrindən biridir. Müdafiə siyasətinin həyata keçirilməsində həlledici rol dövlətin silahlı qüvvələrinə məxsusdur. Müstəqil dövlət və beynəlxalq hüququn subyekti kimi Azərbaycan Respublikası Konstitusiyasına müvafiq olaraq öz silahlı qüvvələrinə malikdir. Azərbaycan Respublikası öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədilə Silahlı Qüvvələr və başqa silahlı birləşmələr yaradır. Azərbaycan Respublikasının Silahlı Qüvvələri Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün, onun toxunulmazlığının və mənafeyinin silahlı müdafiəsinə, dövlətə silahlı hücümun qarşısının alınmasına, təcavüz olarsa, onun dəf edilməsinə xidmət edir.

Azərbaycanın sərhədləri yaxınlığında gedən mürəkkəb və ziddiyyətli proseslər milli təhlükəsizliyimiz üçün ciddi təhdidlərə çevrilmişdi və Əfqanıstanda, İraqda, Gürcüstanda, Dağıstanda ciddi gərginlik ocaqlarının mövcudluğu, rəqib xüsusi xidmət orqanlarının bu vəziyyətdən istifadə etmək cəhdləri ilə xarakterizə olunan əməliyyat şəraiti ölkəmizin sərhədlərinin daha mükəmməl şə-

kildə qorunmasını tələb edirdi. Digər tərəfdən, İpək yolu və Şimal-Cənub kimi transkontinental nəqliyyat dəhlizlərinin, ölkəmizin ərazisindən keçməsi müxtəlif transmilli kriminal təşkilatları mövcud şəraitdən öz məqsədləri üçün istifadə etməyə həvəsləndirirdi. Ölkəmizin sərhədlərinin mühafizəsinin gücləndirilməsini vacib edən səbəblər arasında 11 sentyabr hadisələrindən sonra antiterror koalisiyasının üzvü olmağımızı, Xəzər dənizində karbohidrogen ehtiyatlarının hasilatının və ixrac infrastrukturunun təhlükəsizliyinin yüksək səviyyədə təmin edilməsi zərurətinin mövcudluğunu, dövlətin gündən –günə artan iqtisadi qüdrətinin mühafizəsi və daxili bazarın təhlükəsizliyinin təmin edilməsi məqsədilə qaçaqmalçılığa qarşı qətiyyətli mübarizə aparılmasının mühüm əhəmiyyət kəsb etməsini, ölkə sərhədlərinin tam mühafizə altına alınması məqsədilə zəruri maddi-texniki bazanın yaradılmasını xüsusi qeyd etmək olar.

Bütün bu göstərilən səbəbləri nəzərə alaraq  dahi öndər Heydər Əliyev 2002-ci ilin iyul ayının 31-də Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin yaradılması barədə fərman imzaladı və bununla da, sözün həqiqi mənasında Azərbaycan sərhədlərinin etibarlı mühafizəsi işini yeni mərhələyə qaldırmış oldu. Sonralar Heydər Əliyev Azərbaycan sərhədçiləri ilə dəfələrlə  görüşlər keçirmiş və  öz tövsiyə və biliklərini onlarla bölüşmüşdür. Onun 1996-cı ilin oktyabr ayının 30-da Naxçıvan Sərhəd Dəstəsinin əsgər və zabitləri ilə görüşdə, 1996-cı ilin dekabr ayının 17-də, 2001-ci ilin avqust ayının 16-da Sərhəd Qoşunlarının yaradılmasının ildönümünə həsr olunmuş mərasimdə, 2002-ci ilin mart ayının 6-da Sərhəd Qoşunlarının illik hesabatında söylədiyi nitqlər, sərhəd mühafizəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün verdiyi göstərişlər ölkəmizin sərhədlərinin mühafizəsi işinin təşkilində mühüm əhəmiyyət kəsb edir (3, 142).

Ümummilli lider sərhədçilərlə keçirdiyi görüşlərdə onların qarşısında konkret vəzifələr qoymaqla müvafiq dövlətlərlə sərhədlərin delimitasiyası, eləcə də dünyanın digər ölkələrinin sərhəd mühafizə qurumları ilə münasibətlərinin qurulması haqqında göstərişlər verirdi. Bütün bu yaradılan şərait və ölkə prezidentinin göstərdiyi qayğı Dövlət Sərhəd Xidmətinin qarşısında ümumi uzunluğu 3370.4 kilometr olan ölkə sərhədlərini etibarlı qorumaq  vəzifəsini və məsuliyyətini qoyurdu.Məhz bu dövrdən sonra sərhədyanı bölgələrdə əhalinin sosial-iqtisadi inkişafını təmin edən tədbirlər proqramı həyata keçirilməyə başlanıldı. Sərhədlərin təhlükəsizliyini daha etibarlı təmin etmək üçün  icra hakimiyyəti orqanlarının, ictimai təşkilatların,  vətəndaşların fəaliyyəti ilə  sərhəd qoşunlarının fəaliyyəti əlaqələndirilməyə başlanıldı.

2001-ci il 11 sentyabr hadisələri insanlar tərəfindən mövcud reallıqların, təhlükələrin və təhdidlərin qəbul edilməsini sadəcə köklü şəkildə dəyişmədi. Məhz onların nəticəsi olaraq dünya miqyasında kollektiv və fərdi təhlükəsizliyin təmin edilməsi problemi prioritet əldə etməyə başladı (1, 13).

Məhz bu prioritetləri nəzərə alan prezident İlham Əliyev Azərbaycanın milli təhlükəsizliyinin qorunmasını nəzərdə tutan hüquqi bazanı yaratdı. Ölkə prezidenti tərəfindən 2007-ci il 23 may tarixində imzalanmış sərəncam ilə

təsdiq olunmuş Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında ölkənin təhlükəsizliyinə olan təhdidlər haqqında geniş müddəalar öz əksini tapmışdır. Bu sənəd ölkənin milli təhlükəsizlik siyasətinin həyata keçirilməsində uzunmüddətli strateji vəzifə və prioritetləri özündə əks etdirən konseptual sənəd hesab olunur. Konsepsiyada dövlətin təhlükəsizlik mühiti, Azərbaycan Respublikasının milli maraqları və bu maraqlara olan təhdidlər geniş şəkildə işıqlandırılmışdır.

Azərbaycanın Avropa və Asiyanın nəqliyyat-kommunikasiya xətlərinin kəsişmə nöqtəsində, geosiyasi, hərbi-geostrateji və geoiqtisadi cəhətdən mühüm əhəmiyyət kəsb edən, enerji qaynaqları ilə zəngin məkanda yerləşməsi onun beynəlxalq, regional və milli təhlükəsizlik siyasətinin əsas vəzifələrinin müəyyənləşməsinə həlledici təsir göstərir (2, 14). Azərbaycan Respublikasının Milli Təhlükəsizlik haqqında Konsepsiyasında milli təhlükəsizliyə olan təhdidlər sırasına sərhədlərin toxunulmazlığı haqqında müddəalar öz əksini tapmışdı. Həmin müddəalara nəzər saldıqda bir daha dövlət sərhədlərinin etibarlı mühafizəsinin təşkilinin ölkənin milli təhlükəsizliyinin təmin olunmasında rolunu görmüş olarıq.

Dövlət təhlükəsizliyi onun sərhədindən başlayır (3, 505). Azərbaycan Respublikasının yerləşdiyi coğrafi məkan, malik olduğu təbii resurslar ona mühüm üstünlüklər verməklə yanaşı, eyni zamanda, onun təhlükəsizliyinə bir sıra problemlər yaradır. Azərbaycan Respublikası ərazisinin 20%-nin Ermənistan tərəfindən işğal altında olması və həmin ərazilərə nəzarətin olmaması, yerləşdiyimiz regionda həll edilməmiş münaqişələrin mövcudluğu nəticəsində ”nəzarətsiz” ərazilərin mövcudluğu transmilli cinayətkarlığın, narkotik qaçaqmalçılığının və digər qeyri-qanuni fəaliyyətlərin çoxalmasına şərait yaradır ki, bu da öz növbəsində ölkənin sərhədlərinin etibarlı mühafizəsini tam zərurətə çevirir (4, 9).

Azərbaycan Respublikasının həssas coğrafi vəziyyəti onu müasir dövrdə daha geniş yayılmış və daha təhlükəli xarakteri ilə seçilən beynəlxalq terrorçuluq, qeyri-qanuni miqrasiya, insan alveri, narkotik vasitələrin qaçaqmalçılığı, kütləvi qırğın silahlarının yayılması kimi bir sıra transsərhəd təhdidləri ilə üzləşdirir. Müasir dövrdə sərhəd təhlükəsizliyi məsələsi neft və qaz yataqlarının, nəqliyyat dəhlizlərinin təhlükəsizliyinin təmin olunmasında getdikcə daha çox əhəmiyyət kəsb etməkdədir. Azərbaycan Respublikasının sərhəd təhlükəsizliyinə olan təhdidlər onun ərazi bütövlüyünə və təhlükəsizliyinə olan təhdidlərin ən önəmlilərindən biridir. Belə təhdidlər müxtəlif istiqamətlidir ki, onları da ümumiləşdirərək aşağıdakı kimi qruplaşdırmaq olar.

**1. Aqressiya və aqressiv separatçılıq –** Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının 20% ərazisinin işğalı və bu ərazidə qeyri-qanuni fəaliyyətin həyata keçirilməsi, problemin danışıqlar yolu ilə həll olunması istiqamətində aparılan danışıqların müsbət nəticə verməməsi Azərbaycanın həm sərhəd təhlükəsizliyinə, həm də regiondakı geosiyasi vəziyyətə mənfi təsir göstərir.

**2. Beynəlxalq terrorçuluq silahların qeyri-qanuni dövriyyəsi –** Ölkə-

mizin coğrafi mövqeyi Azərbaycan Respublikası ərazisindən beynəlxalq terrorçu təşkilatlar tərəfindən həmçinin kütləvi qırğın silahlarının komponentlərinin və texnologiyasının tranziti məqsədilə istifadə edilməsinə şərait yaradır (5, 145).

**3. Qeyri-leqal miqrasiya və narkotik maddələrin qaçaqmalçılıq yolu ilə daşınması üçün Azərbaycan Respublikasının ərazisindən istifadə edilməsi**. Nəzərə alaq ki, Azərbaycan – İran sərhəddinin 132 km və Azərbaycan-Ermənistan sərhədlərinin 733 km-lik sahəsinin işğalı bu faktı daha da qabardır.

**4. Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməməsi** belə vəziyyət sahilyanı dövlətlərin xüsusən də, İran İslam Respublikasına məxsus üzmə vasitələrinin dəfələrlə Azərbaycan Respublikasının ərazi sularına daxil olmasına, Türkmənistanın Azərbaycan Respublikasına olan əsassız ərazi iddialarına səbəb olmuşdur.

**5. Xəzər dənizində hərbi potensialın artması –** hövzə dövlətləri tərəfindən dənizdə hərbi potensialın artırılması Azərbaycan Respublikasının dəniz sərhədlərinin etibarlı mühafizəsini zərurətə çevirir.

Dövlət sərhədlərinin mühafizəsinin milli təhlükəsizliyin təmin olunması əhəmiyyətinə xüsusi önəm verən ölkə prezidenti cənab İlham Əliyev bu sahənin inkişafına xüsusi önəm verir. **Ç**ox sevindirici haldır ki, ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş Azərbaycan sərhəd siyasəti bu ğun ölkə prezidenti Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Hələ prezident seçkilərindən sonra keçirilən andiçmə mərasimindəki çıxışı zamanı cənab İlham Əliyev demişdi: "Azərbaycan xalqına söz verirəm ki, Heydər Əliyev siyasətinə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəm" (5, 76).

Dövlət Sərhəd Xidməti kimi məsuliyyətli bir vəzifəni yerinə yetirən qurumun inkişaf etdirilməsi isə, heç şübhəsiz, bu siyasətin əsas tərkib hissələrindən birinə çevrilməyə başladı. Qısa müddət ərzində 2005-ci ilin dekabr ayının 27-də "Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi sisteminin 2006-2010-cu illərdə texniki inkişafına dair Dövlət Proqramı"nın qəbul olunması, 2005-ci il avqust ayının 16-da sərhəd dəstələrinin komandirlərinə Döyüş Bayraqlarının təqdim edilməsi ölkə prezidenti cənab İlham Əliyevin bu sahənin inkişafına həssas yanaşmasının əyani sübutudur.

Aparılan genişmiqyaslı islahatlar nəticəsində bu ğün sərhəd nəzarət məntəqələrinin maddi-texniki bazası xeyli möhkəmləndirilmiş, müasir vasitələrlə təchizatı yaxşılaşdırılmışdır. Sərhəd nəzarəti sahəsində müsbət təcrübənin öyrənilməsi və tətbiqi xüsusi əhəmiyyət kəsb etdiyindən Miqrasiya və Sərhəd Nəzarəti İdarəsinin zabitləri beynəlxalq əməkdaşlıq çərçivəsində müxtəlif xarici dövlətlərdə seminar və kurslara cəlb olunurlar. Ali baş Komandanın səyləri nəticəsində sərhəd nəzarət məntəqələrinin nəzarətçi heyətlə komplektləşdirilməsi məqsədilə 2006-cı ilin iyun ayının 20-də Dövlət Sərhəd Xidmətində beynəlxalq standartlara uyğun miqrasiya təlim mərkəzi yaradıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2007-ci ilin iyun

ayının 12-də Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti Akademiyasının yaradılması barədə Sərəncam imzalaması ölkəmizin sərhədlərinin mühafizəsinə göstərilən daha bir qayğının təzahürü idi. Bu sərəncamın ölkəmizin sərhəd mühafizəsi sisteminin təkmilləşdirilməsində öz mühüm rolunu oynayacağı şübhəsizdir.

Məhz ölkə prezidenti İlham Əliyevin ciddi səylərindən sonra Dövlət Sərhəd Xidmətinin yaradılması ilə bağlı olan normativ–hüquqi aktlara əlavə və dəyişikliklər edilmiş, idarəetmə sistemi xeyli təkmilləşdirilmiş, nəzarət-buraxılış məntəqələrində sərhəd nəzarətinin təşkili beynəlxalq standartlar səviyyəsinə qaldırılmış, dəniz sərhədlərimizin mühafizəsinin gücləndirilməsi, dənizdə neft-qaz infrastrukturunun təhlükəsizliyinin təmin olunması üçün Xəzər dənizində müşahidə, axtarış-xilasetmə imkanları xeyli inkişaf etdirilmiş, sərhəd gözətçi gəmiləri müasir naviqasiya və aşkaretmə avadanlıqları ilə təmin olunmuş, Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsi və Naxçıvan Sərhəd Diviziyası yaradılmışdır. Bu gün Sərhəd Qoşunları maddi-texniki təminat baxımından daha böyük uğurlara nail olub. Qoşunların maddi-texniki bazası xeyli möhkəmlənib, sərhədçilərin xidmət və məişət şəraiti yaxşılaşıb. Şəxsi heyətin məişətinin hərtərəfli və fasiləsiz təminatını həyata keçirmək, hərbi hissələrin döyüş və səfərbərlik səviyyəsini daim yüksək saxlamaq, hərbi hissələri qısa müddətdə sülh şəraitindən döyüş vəziyyətinə gətirmək, sərhədçilərin tam həcmdə bütün növ təminatını təşkil etmək üçün lazımi tədbirlər vaxtında həyata keçirilir.

Xarici ölkələrin müvafiq qurumları ilə inteqrə edilmiş sərhəd idarəçiliyi, sərhəd nəzarəti, qeyri-leqal miqrasiya ilə mübarizə, dəniz sərhədlərinin mühafizəsi, təlim-tədris sisteminin təşkili və digər sahələr üzrə əməkdaşlıq edilir. Eyni zamanda DSX Yaxın Şərq və Asiya ölkələrinin sərhəd mühafizə qurumları ilə təcrübə mübadiləsi və əməkdaşlıq aparır. Son zamanlar Azərbaycanın aparılan uğurlu siyasət nəticəsində regional əməkdaşlıq istiqamətində böyük nailiyyətlər əldə etməsi, eyni zamanda Avro-Atlantik strukturlara inteqrasiyası və ümumavropa dəyərlərinin milli maraqlarımıza uyğun formada tətbiqi sayəsində DSX-nin beynəlxalq əməkdaşlıq əlaqələri şaxələnib genişlənməkdədir.

Təsadüfi deyildir ki, Sərhəd Məsələləri üzrə Beynəlxalq Konfrans sərhədlərin təhlükəsizliyinə verdiyi töhfələrə görə 2007-ci ilin sentyabr ayında cənab Prezidenti "Qızıl ulduz" ordeni ilə təltif etmişdir. Azərbaycan Prezidenti Sərhəd Məsələləri üzrə Beynəlxalq Konfransın bu ordeni ilə təltif olunan ilk dövlət başçısıdır (6, 265).

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qayğı və diqqəti Dövlət Sərhəd Xidmətinin şəxsi heyətinin məsuliyyət hissini artırmaqla yanaşı, həm də onları xeyli ruhlandırır, dövlət sərhədlərimizin mühafizəsi sahəsində fədakarlığa səsləyir. Bu məsuliyyətin dərəcəsini ümummilli lider Heydər Əliyev öz çıxışlarında dəfələrlə vurğulamışdır."Sərhəd Qoşunlarında xidmət edən bütün şəxsi heyət Azərbaycanın müstəqilliyini və ərazi bütövlüyünü təmin etmək üçün nə qədər böyük məsuliyyət daşıdığını daim bilməlidir"(7, 165).

## ƏDƏBİYYAT

1. Mehdiyev R. Azərbaycan Qloballaşma Dövrünün Tələbləri. Bakı: XXI-Yeni Nəşrlər Evi, 2004, 582 s.
2. Həsənov Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı: Letter-press nəşriyyat evi, 2011, 423 s.
3. Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik problemi. Bakı: Çaşıoğlu, 2002, 530 s.
4. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik haqqında Konsepsiyası. Bakı: Qanun, 2007.
5. Azərbaycan Respublikası Dövlət Sərhəd Xitməti. Bakı: Şərq-Qərb, 2007, 176 s.
6. Azərbaycan Sərhəd Mühafizəsi 90 illik. Bakı: Şərq-Qərb, 2009, 441 s.
7. Vətən sərhədlərinin keşiyində. DSX. Heydər Əliyev Elmi Araşdırmalar Mərkəzi. Bakı: 2006, 214 s.


## ЗНАЧЕНИЕ ГОСУДАРСТВЕННОЙ ПОГРАНИЧНОЙ СЛУЖБЫ ОБЕСПЕЧЕНИИ НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ АЗЕРБАЙДЖАНА

**Г.АСКЕРОВ**

### РЕЗЮМЕ

Безопасность государственной границы одна из главных задач Концепции национальной безопасности. Территориальная целосность государства и защита его суверенитета начинаются с безопасности границы. Граница играет важную роль в определении геополитической реальности государства. Проблемы обеспечения национальной и международной безопасности стояли перед человечеством во все времена. Она приобрела особое звучание в начале XX века в связи с реальностью угрозы возникновения мировой войны, поэтому на первых порах разработки теории и политики безопасности они отождествлялись с вопросами предотвращения войн. После первой мировой войны они получили официальное признание.

**Ключевые слова:** пограничная служба, политика, международный стандарт, реформы, развитие,

## İMPORTANCE OF THE BOUNDARY SECURITY FOR THE NATIONAL SAFETY OF AZERBAIJAN

**G.ASGAROV**

### SUMMARY

Safety of the state boundary is a chief problem of the conception of national safety. Protection of the territorial integrity and sovereignty begins from the safety of boundaries. Safety of the state boundary is a geopolitical reality. The problem of guarding national and international security has always been a priority of mankind. The problem became more essential at the beginning of the XX century when the threat of world war turned into reality.

**Key words:** border service, policy, international standard, reforms, development